G.M.BAĞIROVA
e-mail: @bagirova-79@list.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

:10.62021/0026-0028.2024.2.115

ROMAN QARİNİN "ÇİNGİZ XAİMANIN RƏQSİ" ROMANINDA POSTMODERNİST ELEMENTLƏR

Xülasə. *Əsrlər boyu ənənələrinə sadiq qalan fransız ədəbiyyatının müasir tendensiyalar əsasında formalaşmasında şübhəsiz ki, Roman Qarinin xidmətləri danılmazdır. Yazıçının Fransa müqavimət hərəkatında iştirakı onun ədəbi fəaliyyətinin də istiqamətini müəyyənləşdirmişdir. Bu baxımdan, "ikili" şəxsiyyəti ilə ədəbi mühitdə maraq doğuran yazıçının yaradıcılığının postmodernist aspektdən tədqiqi aktual hesab olunur.*
Məqalədə Roman Qarinin yaradıcılığına keçid etmədən əvvəl fransız postmodernizmindən bəhs olunur. Daha sonra Roman Qarinin "Çingiz Xaimanın rəqsi" romanındakı postmodernist elementlər təfsilatı ilə təhlil edilir.

Açar sözlər: *postmodernizm, fransız ədəbiyyatı, ironiya, qrotesk, Holokost*

XX əsr planeti bürümüş ekoloji, sosial, mədəni, ideoloji böhran dövründə əvvəlki elmi fikirlərin, ideal istiqamətlərin tükəndiyi və bütövlükdə həyat tərzi ilə düşüncə arasında uçurum yarandığı, mədəni eraların dəyişməsi və yeni dünyagörüşün formalaşması, elm mərkəzli və antroposentrik ideyaların çoxəsrlik mütləqləşdirilməsinin sona çatdığı bir dövr idi.

Görkəmli riyaziyyatçı mütəfəkkir N.N.Moiseev müasir dünyagörüşün universallarını məşhurlaşdıran "Universum. Məlumat. Cəmiyyət" əsərində inandırıcı şəkildə sübut edir ki, bizim təbii təkamül nəticəsində formalaşmış mənəvi dünyamız və biosferdəki davranışımız artıq cəmiyyətin qərq olduğu həyat şəraitinə uyğun gəlmir. *"Sivilizasiyanın gücünün davamlı olaraq yüksəlməsi şəraitində neandertal təfəkkürünü saxlamaq bəşəriyyətin mövcudluğu üçün təhlükəli hesab olunur"* [9, s. 16]. Bununla da, alim yeni əxlaqın, yeni qlobal ideoloji kateqoriyaların formalaşmasının həyati zərurətini sübut edir.

Əsrlər boyu ənənələrinə sadiq qalmış fransız ədəbiyyatında XX əsr xüsusilə yaddaqalan dövr kimi səciyyələndirilir. Məşhur fransız filoloqlarından biri olan R.Bartın tələbəsi Antuan Kompanyon "Nəzəriyyənin iblisi" kitabında iddia edir ki, *"ədəbiyyatın tarixi təkamülünün əsasını artıq statiklik (ənənə) deyil, dinamiklik təşkil edir. Belə ki, hətta boşluğun dinamikası estetik cəhətdən sabitlikdən daha vacibdir"* [8, s. 243]. Müasir bədii şüur sabitlik və ondan imtinanın mürəkkəb dialektikası və onların qeyri-müəyyənliyi ilə xarakterizə olunur. Statiklikdən imtina çox vaxt ənənənin yenilənməsinə, yenidən qiymətləndirilməsinə, dərinləşməsinə və bədii bütövlükdə bir-birini işıqlandıran çoxistiqamətli ənənələrin "estetik cəhətdən ayrılma"sına (Q.Qadamerin təbirincə – G.B.) imkan verir.

Məlumdur ki, XX əsrin əsas tendensiyalarından olan postmodernizm nəzəriyyəsi Jan-Fransua Liotar, Jan Lakan, Mişel Fuko, Jak Derrida, Rollan Bart kimi fransız filosoflarının əsərlərində daha dolğun, elmi cəhətdən əsaslandırılmış və aydın şəkildə ifadə edilmişdir. Lakin heç bir ölkədə postmodernizmin paradoksları Fransadakı kimi "klassik" ifadəyə malik

olmamışdır. Tədqiqatçı L.Q.Andreev fransız postmodernizminə fərqli rakursdan yanaşaraq maraqlı sualla çıxış edir. "...Fransız postmodernizminin nəzəriyyəçilərini hamı tanıyır, bəs fransız postmodernizm ədəbiyyatını kim bilir [1, s. 316]?" Həqiqətən, Fransada postmodernist hesab edilən müəlliflərin dairəsi son dərəcə dardır.

ABŞ-dan fərqli olaraq, Fransada postmodernizm anlayışına mənfi münasibət hələ də qalmaqdadır. Bir çox fransız tənqidçiləri postmodernizmi konseptual uydurma, bir növ "şüar", "azad işarə" kimi qəbul edirlər. Bu nöqteyi-nəzərdən çıxış edən tədqiqatçı Mark Qontar soruşur: *"ABŞ-dan gətirilən şüarın arxasında hansısa sosial-mədəni reallıq var?... Yoxsa bu, sadəcə nəzəri fərziyyədir [5, s. 283]?"* Fransada postmodernizmin rədd edilməsinə istehza ilə yanaşan Antuan Kompanyon isə "Postmodernliyin beş paradoksu" əsərində *"onu biz icad etməmişik, halbuki biz müasirliyin və avanqardın "ataları" hesab olunurduq"* [3, s. 146] fikrini bildirir.

Postmodernizm termini Fransaya XX əsrin birinci yarısında gəlib. Fransada bu terminin ümumi qəbul edilmiş anlayışının və istifadəsinin olmaması, ABŞ və Fransada postmodernizmin fərqli semantik dərki ona gətirib çıxarır ki, Fransada modernist adlandırılan müəlliflər – A.Rob Qriye, M.Kundera, M.Byutor, S.Beket Amerikada postmodernist hesab olunurlar.

Postmodernizm, postpostmodernizm, neo-modernizm, sürmodernizmin paradokslarından biri də ondan ibarətdir ki, necə adlandırılmasından asılı olmayaraq bu anlayış müasirliyə xüsusi önəm verir və müasir ədəbiyyat anlayışını bu və ya digər şəkildə müəyyən edir. Hendrik van Qorp və Dark Delabastitanın "Ədəbiyyat və mədəniyyət terminləri lüğəti"ndə modernizm və postmodernizm arasındakı əlaqəyə işarə edərək deyilir: "Ədəbi postmodernizm adətən modernizmlə müəyyən edilsə də ondan ayrılır *("avec lequel il romp autant qu'il le prolonge")* [6, s. 383].

Postmodernizm bədii ədəbiyyatda təşəkkül tapdığı ilk gündən qəlibləşmiş hər şeyə dualist yanaşaraq, əvvəlki cərəyanları, metodları, konsepsiyaları özünə uyğunlaşdırmağa, keçmiş və bugünü müxtəlif priyomlarla birləşdirərək universal ədəbiyyat yaratmağa müvəffəq olmuşdur.

Dünya ədəbiyyatı tarixində hər yazıçıya bir dəfə verilə bilən Qonkur ədəbiyyat mükafatını iki dəfə alan müasir fransız yazıçısı və mistifikatoru Roman Qarinin (psevdo Emil Ajar) əsərləri tez-tez ekzistensializm və ənənəvi yazı üslubları ilə əlaqələndirilsə də, bəzi tənqidçilər onun əsərlərini məhz postmodernizm kontekstində şərh edirlər. Yazıçının ənənəvi humanizm mövzusu, süjet və qəhrəmanları, dövrün axtarışları və eksperimentləri çağdaş epoxada postmodernist prinsiplərlə çulğalaşaraq müəllifin yaradıcılığına yeni çalarlar əlavə etdi.

1965-ci ildə yazdığı "Skanarel üçün roman və personaj axtarışı" ("Pour Sganarelle recherche d'un roman et d'un personnage") əsərində "Kafka bizi anlaşılmaz ümidsizliyə, Sartr isə heçliyə bağlayır" [4, s. 62] deyən R.Qari totalitar romandan fərqli olaraq total roman ideyasından çıxış edir. *"J'aime Sartre presque physiquement... C'est de la grande tradition... C'est la France, la grande France traditionnelle"* [4, s. 60] – *"Mən demək olar ki, Sartrı fiziki cəhətdən sevirəm... Bu, böyük ənənədir... Bu, böyük ənənəsi olan Fransadır". (G.B.)* sözləri ilə Sartr sevgisini etiraf edərək, qərəzli ədəbiyyatı yeni romanla qarşı-qarşıya qoyan Qari eyni zamanda oxucunu özünə tabe etdirən, insanı və romanı bir situasiyaya bağlayan, onları məhdudlaşdıran hər hansı birtərəfli güc ideyasına etiraz edir. Ənənəçi Qari 1967-ci ildə XX əsrin yeni ədəbi texnikalarına uyğun "Çingiz Xaimanın rəqsi" romanını yazdı. Müasir fransız ədəbiyyatşünası Pyer Bayar "II était deux fois Romain Gary" (" O, iki dəfə Roman Qari olmuşdur") əsərində bildirir ki, "Çingiz Xaimanın rəqsi" əsərində *Qari həm milli yəhudi ənənəsinə əməl edir, həm də ondan kənara çıxır"* [2, s. 83]. Təkcə Holokostdan deyil, ümumiyyətlə yəhudilikdən və insanlıqdan bəhs edən bu romanda postmodernizmin qara yumor texnikasına müraciət edən Roman Qari əsərin xaotik kompozisiyasında parçalanma, sitatlar burulğanı, müxalif fikirlərin birləşməsi kimi üsullardan istifadə etməklə məhv edilmiş dəyərlərin absurd dünyasında hər şeyin ekvivalent və bərabər dəyərli olduğunu göstərir. XX əsrin ikinci yarısında insan şüurunda qlobal ideoloji böhranın modelləşdirilməsi, mədəni ənənənin rasional də-

yərlərinə inamın itirilməsi əsərin əsas ideyasını təşkil edir. Detektiv janrda yazılan romanda Qari Holokostun Avropa sivilizasiyası üçün yaratdığı problemlərə dair geniş təhlillər aparır. Müharibədən sonrakı Almaniyanın Holokostu xatırlamaq və ya ondan dərs götürmək istəməməsinə satirik münasibət göstərən mistik Çingiz Xaima obrazı, alman mədəniyyətinin "psixoloji müayinəsi" üçün polis araşdırmasından istifadə edir. Kiçik bir Alman şəhərciyində ardıcıl qətillərlə bağlı araşdırma yerli polisi Almaniyanın qanlı keçmişinə aparır. Alman vəhşiliyinin yüksək spekulyativ psixoloji təhlili və Qarinin satirasının məqsədi yumor olmasa da, kütləvi qatillərin və onlara məhəl qoymayan cəmiyyətlərin yumor və istehza üçün uyğun bir mövzu olduğunu göstərmək yazıçının şüurlu seçimidir.

Alman leytinantı Şatzın yəhudi komediya ustası Çingiz Xaimanı öldürməsi və daha sonra onun ruhu ilə hesablaşması almanların yəhudilərlə üzləşməli olduğu gerçəyini ifadə edir. Holokostun acı şərhi ilə 1960-cı illərdə Avropadakı bir çox yəhudinin hiss etdiyi yadlaşma hissi arasındakı paralellər Xaimanı valehedici xarakterə çevirir. Ortaq təcrübələri əsasında və qarşılıqlı antaqonizm tarixi ilə bağlı olan Şatz və Xaima nə qədər düşmən olsalar da, yaxınlıq və həmrəylik nümayiş etdirirlər.

"Çingiz Xaimanın rəqsi" romanı bəşəriyyətin taleyi haqqında alleqorik hekayədir. Əsərin təməlində gülüş elementi dayanır. Bu gülüş (sarkazm, başqa sözlə qara yumor - G.B.) vasitəsilə müəllif əsərin alt qatlarındakı əsil mənanı anlamaq üçün oxucudan xüsusi intellektual hazırlıq tələb edir. Qari öz total romanında məhz bəşəriyyətin tarixindən və taleyindən bəhs etdiyi üçün mədəniyyətin müxtəlif təbəqələrinə xas olan komiksin müxtəlif formalarından istifadə edir: yumoristik xalq mədəniyyəti, burlesk, qrotesk, pastiş və s. Gülüş və faciənin – tragifars, burlesk faciəsinin birgə mövcudluğu R.Qarinin romanında təcəssüm tapmış XX əsr ədəbiyyatı üçün xarakterik olan xüsusi simbiozdur.

Bədii ədəbiyyatda ironiyanın funksiyası reallığa kölgə salmaq, yalanı üzə çıxarmaqdan ibarətdir. Roman Qari "Çingiz Xaimanın rəqsi" romanı vasitəsilə məhz alman-yəhudi reallığını postmodern ironiyaya məruz qoyur. Əgər yazıçının ilk romanlarında həqiqətin əbədi formalaşması nöqteyi-nəzərindən mütləq inkar edilmiş qeyri-kamil reallığa əbədi cəhddə romantik istehza var idisə, "Çingiz Xaimanın rəqsi"ndə romantik ironiyadan daha çox həqiqətin mümkünsüzlüyü nöqteyi-nəzərindən postmodern ironiya var.

Yazıçının müraciət etdiyi dövrə qarşı "səlib yürüşü"ndə qroteskin sərhədləri qeyri-adi şəkildə genişlənir. Qari ekzistensial qrotesk ilə parodiyanı birləşdirməklə absurdluq yaradır. Ədəbiyyatşünas alim Tlostanovanın fikrincə, "*Qarinin romanındakı qrotesk hər şeyin absurdluğunu ən aydın şəkildə ortaya qoyur*" [11, s. 424]. Üstəlik, romanın təhkiyə quruluşu da teatraldır. Səhnələrdə, dialoqlarda təqdim olunan dünya, bəşəriyyətin bütün tarixi absurd və fars teatrına çevrilir. Hadisələrin çoxu obrazların şüuraltında baş verdiyi üçün arxetiplər və mifologiya səhnələşdirilir, mədəni stereotiplər absurd qrotesk ruhunda təqdim olunur, siyasi tezislər parodiya edilir, dialoqlarda qanunlar mifləşdirilir və bununla da, qrotesk səhnələr psevdomənəviyyatı, psevdomənəviyyatı, psevdoromantizmi açır.

"Çingiz" almanlar tərəfindən qəhrəmana verilən təxəllüsdür. Əsərin süjetində Çingiz Xaima özü də qroteskə çevrilir. O nə diri, nə də ölüdür: vurulub, lakin ölən və dirilən insan kimi alman şüuraltında yaşayır. O, aqressiv yumoru, sərtliyi və qəddarlığı ilə hər şeyin qeyri-müəyyənliyinin, yaradılışdan əvvəlki dünyanın xaosunun təcəssümüdür. Hibrid formalarla, absurdluq və karnaval estetikasını birləşdirməklə Qari qroteski universal bir kateqoriyaya çevirir. Romanda qrotesk mövcudluğun paradoksunu və daima dəyişən reallığın disharmoniyasını vurğulayır; qaçılmaz ziddiyyətlərin irrasional şəkildə aradan qaldırılması və həqiqəti dərk etməyin xüsusi (irrasional – G.B.) üsulu kimi romantik qroteskin spesifikliyini əxz edir və nəhayət, Qarinin qrotesk modeli reallığı virtual müstəviyə köçürür.

Postmodernizmin ikiqat kodlaşdırma prinsipini qabaqlayan R.Qarinin bədii mətninin əsas xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, əsərdə populyar mədəniyyətin bir hissəsinə çevrilən romantik ədəbiyyatın klişeləri və düşüncə stereotipləri, müasir nəzəriyyələr, elmi fi-

kirlər parodiya olunur; həmçinin əsərdə özünü parodiyadan da danışmaq mümkündür. Yadlaşma, şəxsiyyətin parçalanması kimi modernist kodların parodik şəkildə yenidən düşünülməsi artıq İ.P.İlinin təbirincə desək "ikiqat kodlaşdırma zamanı pastişə çevrilir" [7, s. 118].

Faktiki faciəvi material (yəhudi soyqırımı – G.B.) və onun fantastik təcəssümü romanda xüsusi effekt yaradır: mətnə kollaj prinsipinə uyğun olaraq qrotesk çevrilmə ilə daxil edilən faciəvi həyat materialı özünəməxsusluğunu itirir. Beləliklə, real həyatla bədii mətn arasındakı xətt bulanıqlaşır.

İngilis romantik şairi Şelli yazırdı ki, *"Şairlər yaxınlaşan gələcəyin yaratdığı kölgələri əks etdirən nəhəng güzgülərin şüşəsidir"* [10, s. 206]. Bu nəzər nöqtəsindən çıxış etsək deyə bilərik ki, Roman Qarinin "Çingiz Xaimanın rəqsi" əsərindəki qrotesk güzgülərində əsrin sonlarına xas olan ideyalar, bədii dil və dünyagörüşləri ustalıqla əks olunub.

İşin elmi nəticəsi: Nəticə etibarilə deyə bilərik ki, Roman Qari "Çingiz Xaimanın rəqsi" əsəri ilə müharibədən sonrakı Almaniyanın tarixindəki real hadisələrin təsvirləri ilə müasir yəhudi kimliyini birləşdirərək yəhudi-alman münasibətlərinə dair qəliz şərhlərdən birini yaratmışdır.

İşin elmi yeniliyi: Azərbaycan ədəbiyyatşünaslığında R.Qarinin yaradıcılığının tədqiqi, həmçinin "Çingiz Xaimanın rəqsi" əsərinin postmodernizmin nəzəri prinsipləri əsasında təhlili məqalənin elmi yeniliyinin göstəricisi hesab oluna bilər.

İşin tətbiqi əhəmiyyəti: Məqalə "Müasir Fransız ədəbiyyatı", "Fransız ədəbiyyatında postmodernizm" kimi əsas və seçmə fənlərin tədrisində istifadə edilə bilər.

Ədəbiyyat

1. Андреев, Л.Г. Чем же закончилась история второго тысячелетия? (Художественный синтез и постмодернизм) / Зарубежная литература второго тысячелетия 1000-2000. − М., − 2001.
2. Bayard, P. Il était deux fois Romain Gary / P.Bayard, − P., − 1990.
3. Compagnon, A. Les cinq paradoxes de la modernité. − P., le Seuil, − 1990.
4. Gary Romain. Pour Sganarelle. Recherche d'un roman et d'un personnage. − P., 1965.
5. Gontar, M. Le postmodemisme en France: Définition, critères, périodisation / Le temps des letters: Quelles périodisations pour l'histoire de la littérature française au XX-ème siècle? Rennes. − 2001.
6. Gorp van H., Delabastita D. Dictionnaire des termes littéraires. − P., − 2001.
7. Ильин И.П. Двойной код / Западное литературоведение. Энциклопедия. М, − 2004.
8. Компаньон, Л. Демон теории / Л.Компаньон, − М., − 1998.
9. Моисеев, Н.Н. Универсум. Информация. Общество / Н.Н.Моисеев, − М., − 2001.
10. Николаевна, Ш.Э. Современная французская проза рубежа веков: модификация романной формы / Ш.Э.Николаевна, − Москва, − 2009, − 452 с.
11. Тлостанова, М.В. Гротеск в литературах Запада XX века / Художественные ориентиры зарубежной литературы XX в. − М., − 2002.

G.M.Bagirova

Postmodernist Elements in Romain Gary's Novel "The Dance of Genghis Cohn"

Summary

An outstanding representative of French literature of the 20th century, Romain Gary's literary career is distinguished by its variety and color. The writer periodically presents the problems of the time he lived in and the Jewish identity to which he belongs. Also in his works "The dance of Genghis Cohn" highlighted the German-Jewish problem in a unique way. Using various principles of the postmodern novel, Romain Gary has created an interesting novel. From this point of view, the article first gives brief information about postmodern literature, and then analyzes the novel.

Key words: *Postmodernism, French literature, irony, the grotesque, the Holocaust*

Г.М.Багирова

Постмодернистские элементы в романе Ромена Гари «Пляска Чингиз-Хаима»

Резюме

Литературная карьера выдающегося представителя французской литературы XX века Ромена Гари отличается разнообразием и красочностью. Писатель периодически представляет проблемы времени, в котором он жил, и еврейской идентичности, к которой он принадлежит. Также в своем произведении «Пляска Чингиз-Хаима» уникальным образом осветил немецко-еврейскую проблему. Используя различные принципы постмодернистского романа, Ромен Гари создал интересный роман. С этой точки зрения в статье сначала даются краткие сведения о постмодернистской литературе, а затем анализируется роман.

Ключевые слова: *Постмодернизм, французская литература, ирония, гротеск, Холокост*

Rəyçi: f.f.d., dos. R.F.Əsaszadə

Redaksiyaya daxil olub: 14.05.2024